**Comparative Turkish Dialects and Literatures**
*Karşılaştırmalı Türk Lehçeleri ve Edebiyatları*
**Cilt/** *Volume* **1**, **Sayı** / *Issue* **1**, **Mayıs/** *May* **2022**, 141-156

**Atıf/Citation:** Fuad, E. (2022). Güney Azərbaycan Ədəbiyyatının Əsas Obyekti İnsandır. *Comparative Turkish Dialects and Literatures*. 1 (1). 141-156.

# *GÜNEY AZƏRBAYCAN ƏDƏBİYYATININ ƏSAS OBYEKTİ İNSANDIR*

## The Main Object of South Azerbaijani Literature is Human

**Araştırma Makalesi / Research Article**
(Makale Geliş Tarihi: 28.02.2022 / Kabul Tarihi: 10.05.2022)

**Esmira FUAD**[*]

**Özet**

Hakikatin ışığında parlamayan düşüncenin, bir yandan ilerlemeyi hızlandırıp gelişmeyi hızlandırırken, diğer yandan insanların ahlakını bozduğu, çoğu zaman yoldan çıkardığı, büyük haksızlıklar yaptığı, düzeni bozduğu bir gerçektir. doğanın. dünya haritasını yok etmeyi amaçlar. Soykırımların ölçeğini genişleten, ezilenler, ezilenler ve mazlumlar arasındaki geleneksel anlaşmazlığı güçlendiren, dünyaya hakim olduğunu iddia eden ABD gibi süper güçlerin yönetici sınıflarıdır. acı çeken insanlar giderek daha fazla sömürülüyor. Tüm bunların sonucunda şiddet, bencillik, kin ve ulusal baskı dayanılmaz hale gelmiş ve sınırları aşmıştır. Böylesine zor ve kaotik bir dönemde, süper güçler bilimin, gerçek düşüncenin ve ilerlemenin kazanımlarından yararlanarak insanlığı, özellikle Müslümanları, İslam ümmetini, tabii ki Güneyli şairleri yok etmeye çalışırken, bunlara seyirci kalmıyorlar. iktidar savaşında bu süreçleri büyük bir gönül yarası ve heyecanla karşılar ve eserlerinde sert eleştirilerin ve teşhirlerin hedefi haline getirirler. Aynı zamanda şiir ve nesir örneklerinde her türlü bencillikten, kötülükten ve aşağılanmadan arınmış kutsal bir manevi dünya kurarlar, insan ırkının mutluluğuna, kişiliğin saflığına inancı aşılarlar ve her zaman gerçekleri görmek isterler. insanın manevi dünyası temiz, saf ve güzeldir.

---

[*]Prof. Dr, Azerbaycan Nizami Gencevi Edebiyat Enstitüsü, *Prof. Dr., Azerbaijan Nizami Gencevi Literature Institute*, esmirafuad@mail.ru, ORCID ID: https://orcid.org/0000-0002-8794-608X

**Açar sözlər:** Güney Azərbaycan Şairləri, Poeziya, İnsan, Dünya, Vətən.

## Öz

Hakikatin ışığında parlamayan düşüncenin, bir yandan ilerlemeyi hızlandırıp gelişmeyi hızlandırırken, diğer yandan insanların ahlakını bozduğu, çoğu zaman yoldan çıkardığı, büyük haksızlıklar yaptığı, düzeni bozduğu bir gerçektir. Doğanın dünya haritasını yok etmeyi amaçlar. Soykırımların ölçeğini genişleten, ezilenler, ezilenler ve mazlumlar arasındaki geleneksel anlaşmazlığı güçlendiren, dünyaya hâkim olduğunu iddia eden ABD gibi süper güçlerin yönetici sınıflarıdır. Acı çeken insanlar giderek daha fazla sömürülüyor. Tüm bunların sonucunda şiddet, bencillik, kin ve ulusal baskı dayanılmaz hale gelmiş ve sınırları aşmıştır. Böylesine zor ve kaotik bir dönemde, süper güçler bilimin, gerçek düşüncenin ve ilerlemenin kazanımlarından yararlanarak insanlığı, özellikle Müslümanları, İslam ümmetini, tabii ki Güneyli şairleri yok etmeye çalışırken, bunlara seyirci kalmıyorlar. İktidar savaşında bu süreçleri büyük bir gönül yarası ve heyecanla karşılar ve eserlerinde sert eleştirilerin ve teşhirlerin hedefi haline getirirler. Aynı zamanda şiir ve nesir örneklerinde her türlü bencillikten, kötülükten ve aşağılanmadan arınmış kutsal bir manevi dünya kurarlar, insan ırkının mutluluğuna, kişiliğin saflığına inancı aşılarlar ve her zaman gerçekleri görmek isterler. İnsanın manevi dünyası temiz, saf ve güzeldir.

**Anahtar kelimeler:** Güney Azerbaycan Şairleri, Şiir, İnsan, Dünya, Vatan.

## Abstract

It is a fact that thinking that does not shine in the light of truth, on the one hand, enhances progress and accelerates development, on the other hand, it corrupts people's morals, often leads them astray, commits great injustices, and destroys the order of nature. aims to destroy the map of the world. It is the ruling classes of the superpowers, such as the United States, which claim to dominate the world, that expand the scale of genocides, strengthen the traditional discord between the oppressed, the oppressed and the downtrodden. The hardworking people who provide, the suffering people are increasingly exploited. As a result of all this, violence, selfishness, malice, and national oppression have become unbearable and cross borders. At such a difficult and chaotic time, when the superpowers, taking advantage of the achievements of science, real thinking and progress, are trying to destroy humanity, especially Muslims, the Islamic Ummah, of course, the Southern poets They do not remain spectators to the battle of power, they meet these processes with great heartache and excitement, and make them the target of sharp criticism and exposure in their works. At the same time, in the examples of poetry and prose, they build a sacred spiritual world free from all kinds of selfishness, evil and humiliation, instill faith in the happiness of the human race, purity of personality, and always want to see the spiritual world of man clean, pure and beautiful.

**Keywords:** Poets of South Azerbaijan, Poetry, Man, World, Homeland.

## Giriş

Yaşadığımız dünyanın bir gerçəyi də var ki, haqqın nuruna, işığına bələnməyən düşüncə bir tərəfdən tərəqqini gücləndirərək inkişafı sürətləndirirsə, digər tərəfdən insanların mənəviyyatını, əxlaqını korlayır, onları əksər hallarda düz yoldan sapdırır, böyük haqsızlıqlar etməyə, təbiətin düzənini, dünyanın xəritəsini pozmağa istiqamətləndirir. Düşüncənin, ağılın məhz birtərəfli inkişaf etdiyi sivil ölkələrin, yəni Amerika kimi dünyaya ağalıq etmək iddiasında olan super dövlətlərin hakim təbəqələri soyqırğınlarının miqyasını genişləndirir, əzilənlərlə əzənlər, zalımlarla məzlumlar arasındakı ənənəvi nifağı gücləndirir, müftəxorlar alın təri tökərək qazandıqları cüzi vəsaitlə yaşayışını təmin edən zəhmət adamlarını, əzabkeş xalqı getdikcə daha çox istismar edir. Bütün bunların da nəticəsində zorakılıq, xudbinlik, xəbislik, milli zülm artıb dözülməz həddə çatır, sərhədləri aşır. Belə çətin xaotik bir dövrdə, super dövlətlərin elmin, real təfəkkürün və tərəqqinin nailiyyətlərindən yararlanaraq bəşəriyyəti, xüsusən də müsəlmanları, İslam hümmətini məhv etməyə doğru yönəldiyi bir zamanda, təbii ki, Güney Azərbaycan yazarları iki dünyanın-mənəviyyatla maddiyyatın, gücün savaşına seyrçi qalmır, bu prosesləri böyük ürək ağrısı və həyəcanla qarşılayır və bütün bunları əsərlərində kəskin şəkildə tənqid və ifşa hədəfinə çevirirlər. Eyni zamanda şeir və nəsr nümunələrində hər cür xudbinlikdən, pislik və rəzalətlərdən uzaq müqəddəs bir mənəvi dünya qurur, bəşər övladının xoşbəxtliyinə, şəxsiyyətin təmizliyinə inam aşılayır, insanın mənəvi aləmini daima təbii, saf və gözəl görmək istəyirlər. Düşüncələri fəlsəfi məqamlara söykənən Hadi Qaraçayın "Qəribə bir dünyadayıq" lakonik şeiri sanki yaşadığı dövrün, zamanın simasıdır. Şair ağalar və qullar dünyasındakı təzadlara, ulu Yaradanın heç bir fərq, ayrı-seçkilik salmadan, eşit olaraq xəlq etdiyi insanların maddi durumundakı, yaşayışındakı kəskin uyğunsuzluqlara, *"evində uşaqlarının sayı qədər çörəyi olmayan kasıbların və uşaqlarının sayı qədər saraylara və maşınlara"* sahiblənən harın varlıların vəziyyətinə-bu paradoksallığa nifrətini hayqırır. "Quran"a, Allaha, imamlara yalan andlar içən, ürəklərində saxta andlar, ciblərində minlərlə yalan-palan, çiyinlərində isə bu yalanların günahlarını gəzdirən saxta dindarlara istehza edir. Axı, Hadi yaxşı bilir ki, Tanrının təkcə lal yaratdığı bəndələrin yalanı eşitmədiyi və yalan danışmadığı üçün yeri cənnətdir. Yalan təkcə eşitməyən, danışmayan bəndələr üçün yox, şüurlu hər bir insan üçün böyük günahdır. Yalan heç bir dünyəvi din, heç bir qanun tərəfindən qəbul edilməyən qeyri-insani keyfiyyətlərdən biridir. Ulularımız yalan ayaq açar, amma yeriməz, - desələr də, bu saxta dindarların, məzlumların

əməyini mənimsəyərək haram yolla milyonlar qazanan qoluzorluların yalan-ları insanları çaşbaş salır və bu yalanlar cəmiyyəti elə ağuşuna alır ki, insanlar nəyin doğru, nəyin yalan olduğunu anlamaqda çətinlik çəkirlər... Talelərinə əsən qara yellərin Yer üzündə fəlakətə saldığı məzlumlara şairin sevgi və rəğbəti nə qədər böyükdürsə, ehtiyac içində yaşayan insanların əməyi hesabına əldə olunan böyük sərvət, haram yolla milyonlar sahibi olan dövlətlilərə, məmurlara, "Quran"a, Allaha yalandan and içən saxta dindarlara, quduğan meşşanlara nifrəti o qədər sonsuzdur:

*Qəribə bir dünyadayıq*
*Ağalar var: Uşaqları sayısında sarayları,*
*Uşaqları sayısında maşınları*
*Ciblərində-Imam haqqı, Allah haqqı*
*Sözlərinin şablonları.*
*Ciblərində-minlər yalan, minlər palan,*
*Qəribə bir dünyadayıq.*
*Qullar da var.*
*Evlərində uşaqların sayı qədər çörəyi yox.*
*Ciblərində min arzunun,*
*Sürgünlərdə puçurlamış sümükləri...* (Fuad 2016).

"Qəribə bir dünyadayıq" şeirində *"şair rəndəli və ölçülü bədii üsullardan istifadə edir, canlı, zəngin mənzərə yaradır, eyni zamanda sərbəst vəznin incəliklərini şeirə elə bir ustalıqla gətirir ki, poetik ahəng qətiyyən pozulmur, ritm, ahəng isə əruz və ya heca vəznində olduğu kimi, münasibətini qətiyyən itirmir..."* (Vüqar 2010: 151).

Maraqlıdır, şeirlərində bir-birindən gözəl, mükəmməl bədii tablolar, çoxqatlı metaforik ifadələrlə süslü peyzajlar yaratmaq, bədii ifadə və təsvir vasitələrindən yüksək sənətkarlıqla isifadə etmək qüdrəti yansıyan ciddi ədəbiyyat tədqiqatçısı və istedadlı şair Hümmət Şahbazinin "Haraya gedir bu həyat?" şeiri həyatın paradoksallığı, təzadları, dildə Tanrının bərabər yaratdığı, lakin cəmiyyətdə tutduqları mövqeyə, sosial vəziyyətinə görə tamamilə fərqlənən, qeyri-bərabər olan insanların yaşam tərzini müşahidə edərək "Qəribə bir dünyadayıq" şeirini yazan qələm və əqidə dostu Hadi Qaraçayın fikrinin təsdiqi, açıq cavabı kimi səslənir. Xüsusilə də *"Nə dənizdə bir sevinc, nə damlada bir arzu, Səssiz-səmirsiz hıçqırtıdır bu həyat... Haraya gedir görəsən, bu durumda bu həyat?.."* misraları ki, təkcə onun deyil, bütöv bir xalqın boğulmuş həyatının hıçqırıqlarını, dişində boğulan harayları hayqırır:

*Haraya gedir görəsən, bu durumda bu həyat?*
*Qorumaqla da olmur sevdanı yaşamaq.*
*Uzanır yalaqlıq ilğımlı nərdivanla*
*Dimdikləyir quşlar dalğaların izini…*
*Günəş: bir sıldırım qaya,*
*Arxasında sıra duran göyərtilər*
*Ölümlü-dirimli yuxularda bəlkə də.*
*Hər addımda sanki illərin qoxumuş izi var.*
*Bu izlərdə: Qoxumuş əllər, çürümüş dillər*
*Bu dillərdə: Boğulmuş həyat!*
*Bu durumda bu həyatın: "Sağ olsun!" sədası gəlsin,*
*Bu bir sevinc, bu bir nisgil.*
*Haraya gedir görəsən bu durumda bu həyat?*
*Nə dənizdə bir sevinc, nə damlada bir arzu*
*Səssiz-səmirsiz hıçqırtıdır bu həyat.*
*Bəbəklərində iz qoyan bu baxışların tozunda*
*haraya gedir görəsən bu həyat, bu durumda?..* (http://yarpaq.az › test).

Dərdi oturub dizinə-başına döyə-döyə, ağlayıb-sıtqamaqla çatdırmaq üsulundan qat-qat güclüdür bu deyim... İnsanı, oxucunu durduğu yerə mıxlayacaq gücdədir bu misralar... Düşündükcə düşünməyə sövq edir öz oxucusunu və "Boğulmuş həyat"a nəfəs verməyə, bu həyata məhkum olunmuşları ölümün dəhşətli pəncəsindən xilas etməyə səfərbər edir... Poeziyanın məqsədi, şairin amacı da elə budur: Düşündürmək, səfərbər etmək, birlik yaratmaq və... nəfəs kəsən düşmənçiliklərə, güclərə qarşı mübarizəyə, savaşa qalxmaq!.. Çünki onlar dərindən dərk edirlər ki, *"Əgər bir millətin fəlsəfi və ədəbiyyat kitabları həssas, xəyalpərvər, laübali qələmlərlə yazılmışsa, şübhə yox ki, o millət, o nəsil cərəyanla qapılıb da həp o yolda hərəkət edər və mümkün deyil, axıntıya qarşı bir dürlü kürək çəkməz. Məsələn, bir gənc bir şer, bir hekayə, bir roman, bir tarix, bir faciə oxuyacaq olursa, dərhal özünə ruhdaş, məsləkdaş olmaq üzrə bir qəhrəman seçər, bir tip bəyənər və o ruhda yaşamağa yeltənər və o məsləkdə yaşamaq istər və bu yazılan əsərlər isə, adətən, aləmşümul bir müəllim yerinə keçər, qarelərin ruhlarına nüfuz etməyə başlar"*(Açıq söz: 1915). Eynilə Hümmət Şahbazinin suallarının nüfuz etdiyi kimi... Bu suallar həm də insanın özü-özünü bir qınağıdır... H.Şahbazi qaçılmaz bir gerçəyi hayqırır: Ey insan, bu dünyada *"meşələr kimi hürr, ağaclar kimi qardaşcasına (N.Hikmət)"* yaşamaq varkən, nədən onu boğulmuş həyata, cəhənnəmə çevirirsən?

Və *"izlərində qoxumuş əllər, çürümüş dillər"* daşlaşmış bu cəhənnəmin memarı isə məhz İnsanın özüdür...

Məhəmmədrza Ləvayi şeirlərinin mərkəzində də İnsan durur, sevgisi, sevinci, kədəri, əzabları, ağrıları çulğaşmış bir İnsan!.. Vətənindən didərgin salınmış yaralı quş misalı İnsan... Onun canlandırdığı İnsan öz oğlu da ola bilir. Oğlunun timsalında bütün Güney Azərbaycanın uşaq və gəncləri bu ağrıları yaşayır. Bütün bu duyğular, düşüncələr göz yaşları, ürəyinin qanı ilə yazdığı şeirlərindən boylanır...

*Təbəssümün Allahımdır, oğlum*
*Və göz yaşların Cəbrayıl tökür ovcuma...*
*Bu peyğəmbərlərin vəhy səhrasına*
*Həzin-həzin ağlarsan hər gecə yorğan altda...*
*Hardasa yağmur utanıb yerə girər!*
*"Tom and cery" silinər televiziyadan*
*Hər gecə Əhməd Kayanın mahnılarını*
*Bağrına basıb yatarsan*
*Və hər səhər fars kanalları dişləyər yuxularını*
*Gündə min dəfə ata məni atıb tutarsan*
*Aramızda mən boyda sərhəd varmış oğlum, bağışla!*
*Nə sən bu sərhədi keçə bildin, nə mən,*
*Səni bayraq yondum Təbrizə bir axşam...*
*Qaldır türk bayrağını, qaldır!*
*Təbəssümünü yay şəhərə,*
*Təbəssümünə tutular düşmən yandırarsan,*
*Və dostlar təbəssümünü içib keflənərlər...*
*Təbəssümün Allahımdır, oğlum!..* (525.Az https://525.az).

Şairin böyük dünyanı kiçik bir mətnə sığışdırdığını duyunca heyrətlənir oxucu... Hər gecə "Tom və Ceri" animasiya filminə baxmaq əvəzinə, ünlü sənətçi Əhməd Kaya'nın kədərli mahnılarına qulaq asa-asa yorğan altında kəm taleyinə yağışı utandırıb başını yerə soxacaq qədər göz yaşı axıdan, *"səhərlər yuxularını fars kanalları dişləyən"* "oğlunun" – türk balalarının durumunun poetik sunumu nə qədər kədər doğursa da, ifadə gözəlliyi-yeniliyi o qədər diqqətçəkicidi... Oğlunun-İnsanın təbəssümünü Allah sayır Məhəmmədrza, bir axşam onu Təbrizə türk bayraq yonduğunu söyləyir... Bu Türk bayrağı ucalarda dalğalandıqca təbəssümü şəhərə yayılacaq, düşməni yandıracaq, dostlar içib keflənəcək... Bu, arzudu, təbəssümü içib keflənmək, "Bir sonsuz küçə" şeirində dediyi kimi, "Yüz ilin tənhalığı"nı – kimliksizliyi, əsirliyi, qadağalar zəncirini boynundan çıxarıb "Anaların boxçası, ataların öyüdü" torpağın üstünə atmaq, Azərbaycan boyda sərxoşluğa bütün dünyanı bürümək və... *"Aç sərhədlərini ay Təbrizli təbəssüm, Çək qucağına Bakını, Ya da İs-*

*tanbula əmr et məni"* istəyini gerçəyə çevirərək bütün məhrumiyyətlərə son qoymaq... Vətənin qoynunda mutlu yaşamaq... İstər M.Ləvayi'nin, istərsə də digər Güney yazarlarının yaradıcılığındakı əsas hədəf olan İnsanın gerçək arzusu budur...

Amma onların sunduğu insan obrazının digər prototipləri də var və dəhşət saçan bu tiplərlə - kaftar nəfəsi adamlar, qarınlar, mizlər, şişmiş iddialar, pörtmüş göbələklər, haram duyğuların əsiri insanlar, mizlər arxasındakı koramazlar, ulduzlu çiyinlər, talesiz ulduzlar -bomboş yaşayanlar, çürük vicdanlar, mayaksız gözlər- diri leşlər, tanrıya bənzərlərin köləsi, çoxu hürriyyət toxmağı, quldurluq möhtacı, hürriyyət acı insanlar, cəhənnəm dilmancı qazilərlə... eyni cəmiyyəti paylaşmağın necə böyük faciələr törətdiyi M.Ləvayi'nin sunumunda açılır...

"Hazırda Güney Azərbaycanda "direniş ədəbiyyatı" inkişafdadır", - deyən Məlihə xanım da hesab edir ki, Güney Azərbaycanın şair və yazarlarının mövzuları məfhum və anlayış baxımından daha geniş və dərindir. Maraqlı qiyaslama aparan istedadlı xanım yazar sanki həyatın tam mərkəz nöqtəsində bardaş quraraq əyləşmiş və gerçəklikləri, baş verənləri səbrlə, ayıq nəzərlərlə müşahidə edir: *"Quzey Azərbaycanda şair xoşbəxtliyi kartof qızartmasının qoxusunda görürsə, güney şairinin xoşbəxtliyi azadlıq duyğuları ilə yaşamaqda, bu uğurda qalxışmış üsyandadır"* (https://turuz.com › storage › Artkle › 1373-_Guney...). Neyləyəsən ki, bu, bir həqiqət, acı gerçəkdir... İxtiyarsız olaraq istedadlı şairimiz Əli Kərimin "İki sevgi" şeirindəki müqayisə özünü yardıma yetirir:

*Gözəl qız, sən saf susan, bir könül atzususan.*
*Mən ki, səni sevirəm,*
*Susuzluğun od vurub köz kimi yandırdığı*
*dodaq su sevən kimi,*
*O isə səni sevir, kabab üstdən sərin su*
*pis olmaz, deyən kimi...* (Kerim 2004: 157).

Hadi Qaraçayın Kult.az saytında Rafət Pirisoy adlı ədəbiyyat və ədəbi dartışma "həvəslisi"nə doğru (həm də konkret və sərt) cavabını olduğu kimi verməyi "Hazırda Güney Azərbaycanda "direniş ədəbiyyatı" inkişafdadır" fikrinin ən uyğun açıqlaması hesab edirəm: *"Güney Azərbaycanda azərbaycanlılar (daha doğrusu, güneyli-quzeyli-E.F.) bir çoxlarının görmədiyi, ya görmək istəmədiyi bir döyüş içindədilər və bu döyüşün ön sıralarında gedənlərin bir çoxu elə günü bu gün İran İslam Respublikasının zindanlarında yatır. Azərbaycanlılar qoyun quzu deyil, küy-*

*ləyib meydanlara çıxarsınlar. Biz onsuz da meydandayıq..* (https://azkurs.org › esmira-fu...). Onlar həqiqətən bu gün həm döyüş, həm də sənət meydanında ardıcıl surətdə, fəal mübarizə aparırlar...

V.Q. Belinski yazırdı ki, *"lirikada şairin şəxsiyyəti birinci planda durur, biz ancaq onun vasitəsilə hər şeyi qəbul edib anlayırıq. Lirik poeziya (epik poeziyanın ziddinə olaraq) əsasən subyektiv daxili poeziyadır, şairin öz-özünü ifadə etməsidir... "*(https://azkurs.org/esmira-fuad-sukurova-filologiya-uzre-felsefe-doktoru amea-niza.html?page=4). Hadi Qaraçay da şeirlərində özünü, mənsub olduğu xalqın iç dünyasını-düşüncələrini ifadə edir:

*Muğan buğdasına yerikləyən torpağın yazı*
*Ərdəbil xalçasına yenmiş ormanın güzü*
*Savalanın südəmər döşü mən!*
*Çala çalımlı, Beli qılınclı*
*Süd qoxulu doğunun*
*Yopu yumru qoçuyam mən*
*Anam şaman olub, Atam ozan*
*Çay dənizdən, ağac bağdan*
*Daş dağdan danışıb, mən səndən*
*Göyçə gölünün çiçəyi gözün*
*İsıq gölünün ördəyinə çəkər boynun...* (http://bizimyazi.az).

*"Mən, biz, bütün dünya bir adamın sinəsində çarpazlaşır və bəşəriyyətin səadəti naminə qüvvətli, coşğun, ehtiraslı bir ürək kimi vurur..."* - deyən Məmməd Arif sanki bütün dünyanın "Anam şaman olub, Atam ozan" yanıtını verən Hadi Qaraçayın bu şeirinə daşındığını müşahidə edə bilib və bir ürək kimi döyüntülərini duyubmuş... Yazda Muğan çöllərinin dizə qalxan buğda zəmisi, meşələrin, ormanların payızının qızılı-sarı rənglərini özündə yansıdan Ərdəbil xalçası, Savalan öz "Yopu-yumru qoçuna" - Hadiyə - "Həqqə, imana münadi" balasına süd verən ana, anası şaman, atası ozan olan bu yopu-yumru qoç balanın sevdiyinin gözləri Göyçə gölünün çiçəyinə, boynu İsıq gölünün ördəyinin boynuna çəkir. Çay dənizdən ağac bağdan, daş dağdan, o isə çiçək gözlü, ördək boyunlu sevgilisindən danışır. Sevgi dolu bir dünyanın uğurlu tablosu belə yaranır modernist şeir dediyimiz poeziya nümunəsində və bu, əsl poeziyadır!..

Əli Məhəmməd Bəyani isə "Ana" şeirində ənənəvi mövzuya müraciət edir. Şairlərimizin əksəriyyətinin əski çağlardan bəri şərəfinə maraqlı əsərlər həsr etdikləri müqəddəs varlığa-Anaya ali hisslərini yansıdan şair tamamilə yeni bir təşbeh

işlədir və bütün ailələrin dayağı, ev-eşiyinin qoruyucusu, övladlarının yolunda ömrünü şam tək əridən, odda yandıran pərvanə kimi təqdim olunan Ananı Ata ocağının odununa, ev-eşiyin istilik qaynağına bənzədir:

*Ərlər istədilər Xanımanlarını,*
*Eşidən yerindən duranda getdi,*
*Atanın mərizlik Halına görə,*
*Günəşdə gələnlər, boranda getdi,*
*Hamı getdi, evdə bir ana qaldı,*
*Bir də döşək üstə məriz bir kişi,*
*Ata ocağında Ana odundur,*
*Gecələr, gündüzlər, yanmağqır işi.*
*Görməyib heç kimsə Ana tək odun,*
*Nə gurcanaq edər, nə tütün salar.*
*Odlanıb astadan külə dönsə də,*
*Yenə də hamının qadasın alar...* (https://turuz.com › storage › Artkle › 1373-_Guney).

Bu, kişinin həyatında və məişətində önəmli yeri olan müqəddəs varlığa-qadına və Anaya yeni yanaşmadır və ənənəvi obrazın yeni təqdimat üsulu kimi maraq doğurur… Qadın bu kimi şeirlərdə, hər şeydən öncə, İnsandır…

Poeziyanın əsas obyekti insandır, onun fikri, düşüncəsi, hiss və duyğuları, bir sözlə, əhatə olunduğu mühit və daxili dünyasıdır... Güney yazarlarının da şeirlərinin mayasında şair və onun daxili dünyası durur. Qeyd etdiyimiz kimi, onların əsərlərində aparıcı xətt-Güney Azərbaycan xalqının keşməkeşli taleyi, bu taleyin üzərindən qara yellər əsdirən şər qüvvələrə qarşı etiraz, qədərə üsyan və mövcud vəziyyətdən-xalqını və ana dilini köləlikdən qurtuluşa doğru aparan yeganə yola - mənəvi birliyə çağırışdır... Ərgin üzləşdikləri real duruma öz etiraz və üsyan duyğularını "Ulus var" şeirində orijinal müqayisələrə bükür. Lakin bu bükülmənin şərti olduğu ilk baxışdanca duyulur və ixtiyarsız olaraq şüurlarda hələlik susmuş, əslində isə hər an aktivləşə biləcək vulkan təsəvvürü yaradır:

*Ulus var, yalnız gülər.*
*Ulus var, yalnız ağlar.*
*Ulus da var,*
*Bəzən gülər, bəzən ağlar.*
*Bizim gülüşümüz dodağımızda quruyub,*
*Göz yaşlarımız boğazımızda düyünlənib...* (Hüseynelizade vd. 2014: sayfa no belirtilmemiş).

Bircə şeirdə bütöv bir yurdun, dili, tarixi əlindən alınmış əsir bir xalqın taleyini yazmaq, obrazlı, həm də bu dərəcədə konkretliklə ifadə etmək, təbii ki, şairlik istedadının bəlirtiləridi... Bu, şairin öz elinin dərdi ilə yaşaması, bu dərdləri içində daşıması, fəryadının boğazında düyünlənməsi, harayının dişləri arasında boğulmasıdı. Bu məqamda Ələkbər Dehxudanın "Cəmiyyəti formalaşdıran ən əhəmiyyətli amil dil, qələm, iş və düşüncə azadlığıdır" fikri düşünürəm ki, tamamilə yerinə düşür... Eləcə də Viktor Hüqonun "Eşq uğrunda həyatımı verərəm, hürriyyət-azadlıq uğrunda isə eşqimi də fəda edərəm" fikri... Çünki insanın qəlbində eşq doğulanda onun ölüm qorxusu o andaca qeybə çəkilir. Eşq, həqiqi aşiqlik gözünü qırpmadan ölümün üzərinə atılmaqdır əslində... Güney şairləri üçün fərqi yoxdu, sərbəst vəzndə yazsın, yaxud hecada, əsərlərindən, bax beləcə, öləsiyə məhəbbət, eşq sıçrayıb şahə qalxır, göylərə yüksəlir, o sürət və emosiya ilə də oxucunun qəlbinə, oradansa düz beyninə millənir... Və bu eşqin hədəfi sevgili deyil, Ana Vətəndir. Sevgiliyə olan eşq böyüyərək Yurdlaşır, Vətənləşir, Azərbaycanlaşır... Səid Muğanlı üçün də sevmək ölmək, *sadəcə dünyaya vida etmək deyil,* sevmək intihar, həm də bir inqilab deməkdir… İnqilabsa Vətən övladlarının Ana yurdun azadlığı, buxovlardan qurtulması uğruna atıldığı ölüm-dirim savaşı, mücadiləsidir və bu mücadilə naminə zindanlara atılmaqdır:

*Sevmək bir intihardır,*
*Qar çiçəyi günəşə baxıb öldü.*
*Sevmək bir ittihamdır,*
*Sevmək, təkcə*
*Sevmək deyil ki!*
*Sənin, mənim, onun arasında,*
*Sevmək, bir inqilabdır.*
*Mən sevirəm,*
*Və... zindandayam…* (Fuad 2016: sayfa no yok).

Bu gün Güney Azərbaycanda modern şeirin inkişafını sürətləndirən bir çox şairlər kimi, S.Muğanlı da əmindir ki, "Babək ölübdürsə də hələ Təbriz ölməyib, O gözlərilə döyüşür" və bu haqq işi uğrunda mübarizə hələ də bitməyib... *Bəli, onlar üçün sevmək azadlıq, istiqlaldır, ana dilində-doğma türkcədə yazıb-yaratmaq, bu dildə təhsil almaqdır. Onlar üçün sevmək, bu azadlığın yolunda zindanları belə gözə almaqdır, Vətənin azad deyilsə, buxovlarda olan bir Vətənin övladı da azad deyil istilahıdır!.. Təbii, həqiqətən çətindi, doğma Vətənin qoynunda dili, arzuları* (http://bizimyazi.az) bağlı yaşamaq, Səhəndin təbirincə desək, *"keçmişindən, gələcəyindən söz açması, dədə-babasından ad alması"* yasaqlanmış bir rejimdə ömür sürmək... Güneyli yazarlar bu yasaqlara son qoymaq uğruna çabalar göstərir,

bu amacla qələmə sarılır, söz və əməl cəbhəsində savaşa atılırlar. İstedadlı şair Məlihə Əzizpur insanı varından yox edən bir şeirində bu çox çətin və ağır savaşın labüdlüyünü bədii poetik sözün gücü ilə çatdırır oxucusuna... Bu şeiri oxuyarkən insanın ruhu, damarlarındakı qanı donur:

*Köynəyinin yaxasını aç, köksünü görüm,*
*Offfff!*
*Burada ki, dost izi var,*
*-Necə də mehriban əlləri varmış-*
*pambıqla kəsib döşlərini.*
*Heç inciməyib, gözlərindən bəllidi.*
*Qoy kürəyinə də baxım.*
*Yaralarına toxunmaram, qadan alım,*
*Yalnız söylə,*
*Bu, qamçı-qamçı qan yollarının sonunu*
*Kimdən xəbər alım mən?*
*Olursa yaşmağını da aç,*
*Gülümsəməni görüm lütfən.*
*Ağlamaram, söz vermişəm Türk kimi--*
*Amma, Yaylığını götürmə kəsin,*
*Götürmə yaylığını.*
*Sənə gələrkən gördüm:*
*Saçlarından çatı hörmüşdülər dar ağaclarına.*
*Dur yola sal məni,*
*Saçlarını geri almağa gedirəm naməhrəm əllərdən.*
*Dua et mənə, Maralım, Yaralım.*
*Bayraq edək bu dərdimizi birliyə, bütövlüyə,*
*azadlıq zirvəsinə ucalaq!*
*Qalxaq ayağa, ey Bütöv Azərbaycan!* (Əzizpur 2012: 31).

Üzdə dost görünən saxta mehribançılıq oyunu oynayan düşmənin nə mehriban əlləri də varmış ki, pambıqla kəsib döşlərini... Ölümə məhkum etdiyi günahsız bir elin mərd oğul və qızlarını asmaq üçün gərək olan "dar ağaclarına çatı hördüyü sevgilinin-Vətənin saçlarını naməhrəm əllərdən geri almağa, qamçı-qamçı açılan qan yollarının sonunu bulmağa-azadlıq zirvəsinə-bütövləşməyə aparan yol uzun və çətin, maneələrlə dolu ağır bir yoldu, savaş da ağır savaşdı, ancaq bu savaş labüddü...

*Azərbaycan,*
*yağışların mahnısına cumculuq islanıb*

*duyğularımın obası altında*
*adını çobanların tütəklərinin*
*isti səsi tək könlümün vərnisinə toxuyuram.*
*gözlərimdən lam-lam adının Arazı axıb.*
*dodaqlarımdan yamyaşıl Muğan tək göyərirsən.*
*dişlərimin zirvəsindən dəniz papaqlı Savalan tək ucalıb*
*dilimin pinarından türk-türk axıb*
*qanımda dalğalanırsan,*
*Az*
*Ər*
*Bay*
*Canım...* (Fuad 2016: syf. No yok).

Ruhunun içindən qoparaq ağ vərəqlərə süzülən bu misralarsa Güney Azərbaycanın Səkinə Purhəsən adlı bir şairi üçün hansı anlamı daşıdığını ortaya qoyur. Azərbaycana həsr olunmuş iki şeir, iki poetik yanaşma... Hər iki yanaşma, münasibət son dərəcə maraqlı, düşündürücüdü... Məlihə xanımın Ulu yurdu xilas etməyə, onu əsarətdən qurtarmağa açıq-aydın, həm də çox kəskin çağırışı, Səkinə xanımınsa tarixi yurdumuzu sevməyə, "gözlərindən Arazı lam-lam axan adını" ürəyimizin şah damarından axan qanımıza qoşmağa, ruhumuzun tən ortasında oturtmağa sakit-sakit, həzin-həzin səslənişi insanı içdən riqqətləndirir. Amma bu şeirdə bir məqam da nəzərdən qaçmır. Şeirin sonunda o, Azərbaycan sözünü hecalara bölərək oxucunun diqqətini Vətən oğullarının bu gün də Ər-ərən-Bay-bəylər olduğuna yönəldir...

Çağdaş Güney poeziyasında öz səsi, öz sözü, öz nəfəsi və şağraq, həm də sakit, axıcı şeir dili olan İsmayıl Ülkərin "Olmaq istəyirəm" şeiri Kərim Çayçının "gecələri taxta tüfənglərilə qol-boyun yatan, gündüzlərisə dolanmaq yerləri şəhid törənlərinin ağlaşması olan yarım qalmış qanmazlıq savaşlarının uşaqlarından birinə, bu günkü dərdli, azadlığa yerikləyən sevgilisinə - Ana torpağa yaşamdan bir gül-Gün çalacam" amacı ilə yaşayıb mübarizə aparan lirik qəhrəmanının (yalnız bu halda şair: - *Səni xatırladığımda, yerdən qol, bacaq çıxır hükümet ormanlarında*, yazardı) bu böyüklükdə dərdinin, milli yanğısının içərisindən həyata gülümsəyən novruzgülü, qar çiçəyi kimi boy verir, günəşi salamlayan və sanki: -*Yaşama sarıl, mübarizəyə qatıl*, - deyən günəbaxan gülü kimi şahə qalxır, həyat eşqi bulaq tək çağlayan şairin çinara udulmaq istəyini və... yaşamaq arzusunu oxucu çox içdən duyur, həm də sanki bir çinara bulaq kimi durulmaq və nəfəs kimi udulmaq istəyini gözlərilə görür:

*Durulmaq istəyirəm*
*Durulmaq! Bulaq kimi*
*Sonra*

*Dan yelindən dərilən bir nəfəs kimi*
*Şehli-şehli, şən-şirin*
*Bir çinara udulmaq istəyirəm*
*Udulmaq...* (Ülker 2011: 17).

Və yaşama sarmaşmaq... Zamana dalmaq, dünyanı gözlərinin giləsinə doldurmaq, mavi yaşıllıqla yaşınmaq, sevgiylə, sevgiliylə dodağını doyurmaq və... insan-təbərrük olmaq istəyi... İsmayıl Ülkər oxucusuna bu qutsal istəyi, sevgini ötürə bilir şeirlərində... Masmavi bir sevgi dünyası qurur və bu dünyanın tən ortasında əyləşdirir onu... Dilini, elini, yurdunu sevməyi öyrədir qarındaşlarına!.. Sevgili olmağı bacarmağın yolunu diqtə edir - *"Qış kimi yağdın işimə, Yaz kimi göyərdin, Yay kimi bitdin, sevgilim... Payız gəlir və biz Bir-birimizdə itmək üzrəyik",* yəni sevgili olmaq həyat kimi, yaşam kimi bir-birində yaşamaq və itmək-ölmək deməkdir... Və... "*Dörd əllə deyil, dörd əlli deyil, Qırx əlli deyil, min əllə dünyanı tutmaq, o buraxsa da, buraxmamaq, Aşiq olmaq, sevgili olmaq, sevdalanmaq"* - deməkdir.

Vətən məhz damarlarında axan qanda oluşan sevimli şairimiz Əziz Səlaminin də bu şeirlə bağlı düşüncələri Səkinənin böyük Vətən sevgisini tamamilə açıqlığa qovuşdurur: *"Bu şeiri oxuyarkən, özgün bir şeir dünyasından baş alıb gələn, yeni bir poetik baxışla qarşılaşır insan. Ana yurdun yağışlarından islanan çox şairlər olmuşdur, amma yağışlarının mahnısına islanmağın tanığı oluruq burada və ölkəsinin sevimili dağını onun ağ dişlərindən baş qaldırıb ucalan görürük və bu dağın yanar başını dənizdən bir qapaq örtməkdədir. Bu yeniliyin qaynağı yeni bir bənzətmə və yaxud yeni bir şəkil deyil; bu, yeniliyi tam yeni poetik bir ruhda aramalıyıq. Bu şeirdən, yaşıl bir yamacda, üzərində çoban tütəyinin havalarının qaranquşları uçuşan doğma obalarımızın birindən keçər kimi olursan. Savalan, Araz və Muğan çölləri bir daha içimizə dolur; bu dəfə tam başqa boyalarla, başqa səslərlə. Bütün bunlar, bizim vətənimiz olaraq, göz yaşına, həsrətə boyanmış və vətən sevgisinə köklənmiş, şirin bir simfoni kimi ruhumuzu sarır. Bu şeir, böyük bəstəçi Smetananın doğma çayı "Moldau" üçün bəstələdiyi əsərinin kağız üstündə sözlərlə səslənməsidir. Həm də şairin öz ana yurdu Azərbaycan üçün..."* (www.aziz-salami.info).

Əslində 1828-ci ildə imzalanmış bədnam "Türkmənçay sülh müahidənaməsi"ndən və əsasən, 1946-cı ildə 21 Azər hərəkatının qələbəsindən - Vətənin, Təbrizin üfüqlərində doğan azadlıq günəşi qan dənizində boğulduqdan sonra, Güney Azərbaycanda yaşayan, öz milli haqq və hüquqları uğrunda ölüm-dirim savaşına qalxan Güney Azərbaycan yazarlarının günü-güzəranı belədi. Həmin bədnam tarixdən sonra xalqın da, bu xalqın yazarlarının da gününün, yaşamının, düşüncələrinin mərkəzində yalnız və yalnız azadlıq ideyalarının gerçəkləşməsi durub... Onların şeirlərinin baş hərfi, "əzəl mübtədası" məhz Vətən olub və bu gün də belədir.

Əsərlərində, özəlliklə də şeirlərində, əsasən Milli kimliyə qayıdır və nisbi mutləq etirazdan söz açır, haray qoparırlar. Ancaq hələ ki, iniltiləri duyulub fəryadları eşidilməsə də, bu gerçəkləşmənin labüdlüyünə əmindirlər, eynilə "*İniltimə gülürsən, Gül! Unutma, ulu şəhərləri dağıdan qasırğalar, Bir kiçik əsintidən başlar*", - deyən Ərgin kimi... Bu Vətən mücahidi üçün də özgürlük həyatın, yaşamın mənasıdı... Düşünür ki, özgür olmayan insanın cilvəli, ehtişamlı yazı "yanar oda, közə dönər, içini, duyğularını qarsar, arzularını boğub kül edər, günü göy əskiyə bükülər. Baharın ılıq nəfəsinin, neyin ecazkar səsinin, bütün gözəlliklərin, sevilən bütün şeylərin heç bir dəyəri olmaz özgür olmayan insan üçün. Gənc şairin gözündə, hətta ananın nəvazişli baxışı, atanın məğrur səsi, körpə uşağın şipşirin gülümsəməsi belə əsərsizdir özgür olmadıqca... Azadlıqda olanların gözündəsə günəşin işığı, ayın aydınlığı ayrı aləmdir, *"qoca gəmiçinin həzin-həzin söylədiyi türkü gözəldir"*, bəlkə də ən sehrkar nəğmədi, toxucu qızın ilmələrdən yaratdığı naxışlar misli-bərabəri yoxdu, iki sevən könlün qovuşması gözəldi... Özgürlüyün yerini heç nə verə bilməz deyən Ərginin gəldiyi qənaət qətidir: - Özgürlük yalnız özü ilə-özgürlüklə qiyaslana, ölçülə bilər.

Dünya şöhrətli şair Henrix Heyne də belə düşünürdü, azadlığı cənnətə bərabər tutur, heç bir sərhəd xətlərilə əhatələnməyən hüdudsuz, bütün qadağalardan uzaq, özünü tam sərbəst hiss edə biləcəyi qutsal bir yer sanır və bu xüsusdakı düşüncələrini fərqli poetik biçimdə ifadə edirdi:

*Mənim cənnətim ancaq elə yerdir ki, orda*
*Azadlığım hüdudsuz, sərbəst olsun tamamən.*
*İçində bircə zərrə qadağan olan yeri*
*Cənnət deyil, cəhənnəm və zindan sayıram mən...* (Azərbaycan Jurnalı 2008).

Məlihə xanımın isə Güney Azərbaycandakı real vəziyyətin diqtəsilə söylədikləri-bu acı həqiqət insanın ayaqlarını yerə mıxlayır və bu barədə ciddi düşünməyə səfərbər edir: *"Qurtuluşun və azad bir millət olmanın bədəli vardır. Heç bir millət öz-özünə qurtulmur. Heç bir qurtuluş dirənişsiz olmur. Bizim gənclərimizin bu yolda çəkdikləri əzablar, zindanlar və gördükləri işgəncələr, bu qurtuluş yolunda ödənilən bədəldir. Bu da nəticəsiz qalmayacaqdır. Çünkü tarixdə doğruluq, haqq və ədalət yolunda gedən mubarizələr sonucda qurtuluşla nəticələnmişdir, ancaq qurtuluş dü-*

*şüncəsini, qurtuluş duyğularını toplumun dünyagörüşündə əkən və oluşduran yazarlar, şairlər və aydınlar olmuşlar. İndiki mərhələdə milli qurtuluş, zaman keçdikcə türk toplumunun dünya görüşündə bir inanc şəkli almaqdadır. Bu inancı ayrıntıları ilə açıqlayan və etik və estetik tərəflərini izah edən, milli dilimizdə yazılan modern ədəbiyyatdır..."* (http://meliheezizpur.blogfa.com).

*"Nəcabətini sazaqların söylədiyi, min illik kədərini yarpaqların saçına elə sazaqların yazdığı (H.Şahbazi)"* ölkədə, kədərin içində boğulan bir məmləkətdə yaşama bu böyüklükdə çılğınca sevgisinə, dünyayla bu qədər yoldaşlığa özü də heyrət edir:

*Bu mənəmmi??*
*Bu çətinlikdə dünyada Bu qədər rahat?*
*Bu mənəmmi tanrım??*
*İçimdə bu qədər yol*
*Hər yol* min yol qolunu
*Qucağıma açmış!*
*Hər höceyrəm bir ayaq,*
*Hər uçurum Bir üzəngi*
*Altımda bunca yəhər...*
*Hər nəfəsim ilxı-ilxı at!*
*Bu Mənəmmi?!*

*Varlıq Nədən bu qədər mənə əziz*

*Hər nəsnə? Nədən bu qədər mənə özəl*
*Torpaqla bu doğmalıq nədir?* (Ülker 2008: 53).

**Sonuç**

Düşünürəm ki, bu çətinlikdə dünyada bu qədər rahat olmaq və yaşama bu qədər sıkıca sarılmaq məhz İ.Ülkər'in yazdığı kimi, torpaqla bu dərəcədə doğmalığın, həyata və insanlığa məhəbbətin sayəsində mümkünləşə bilir. Əslində Mahatma Qandi də on illər öncə məhz sevgiyə, doğmalığa və məhəbbətə tapınaraq bu cümləlləri (Hadi Qaraçay "tümcələri" yazır, yəni fikrin toplumu, bütövü-cümləsi, əslində gözəl ifadədir!) yazmışdı: "Dünyada bu qədər insanın diri qalması göstərir ki, dünya silahın gücünə güvənməmiş, həqiqət və məhəbbətə güvənmişdir. Həqiqətin və məhəbbətin danılmaz gücü bu gerçəklikdə saxlıdır ki, böyük dünya savaşlarına qarşın, həyat davam etməkdədir. Yüz minlərcə ailələrin həyatının pərişan edilməsi, həyatların söndürülməsinə baxmayaraq, həyat davam etməkdədir. Tarix, yalnızca

məhəbbətin qırılma və yenilmə olaylarını yazmışdır. Olayın dərinliyinə diqqət etməmişdir. Ən son amac insan olmalıdır... (Qandi 2012: syf no yok).

### Qaynaqlar

*Açıq Söz* Qəzeti (25-26 oktyabr 1915-ci il), *http://senet.az/muharibə və ədəbiyyat-huseyn-cavid/* .

*Azərbaycan* Jurnalı (2008) Bakı: №1.

Əhməd, Vüqar (2010) *Elmi-Filoloji Qaynaqlar, Ədəbi Simalar Haqqında Düşüncələr*, Bakı.

Əzizpur, Məlihə (2012) *Mənə Bir Küçə Bağışla*, Bakı: Yek Production.

Ə., Səlami (2015) *Axar Kitab,* Berlin - Germany.

Fuad, Esmira *Tanıyaq və Tanıdaq: Məhəmməd RzaLəvayi* - 525.Az https://525.az . Fuad, Esmira (Şükürova) *Filologiya Üzrə Fəlsəfə Doktoru Amea* ... https://azkurs.org › esmira-fu...

Fuad, Esmira *Çağdaş Güney Azərbaycan Ədəbiyyatı (Davamı)* | Bizim Yazı http://bizimyazi.az › ...

Fuad, Esmira (2016) *Güney Azərbaycanda Çağdaş Ədəbi Proses*, Bakı: Hədəf Nəşrləri.

*Hümmət Şahbazinin Şeirləri, Yaxud "Dişimdə Boğulan* ... http://yarpaq.az › test

Qandi, Mahatma (2012), *Bütün İnsanlar Qardaşdır*, Bakı: Qanun Nəşriyyatı. Çev: Güntay Gəncalp.

Kərim, Əl (2004) *Seçilmiş Əsərləri*, Bakı: Lider.

Meqaleler - **مليحه عزيزپور** http://meliheezizpur.blogfa.com

Sartre, Jean Paul (1995) *Hürr Olmak*, Emin Türk Elçin çevirisi, Toplumsal Dönüşüm Yayınları.

Sevilməyi düşünmə, sevməyi öyrən – Turuz https://turuz.com › storage › Artkle › 1373-_Guney...

Ülkər, İsmayıl (2011), *Sevda Yoldaymış, Şeir Toplusu-2005-2008*, Bakı: Dayaq Yayınları.

www.aziz-salami.info.